ANKARA
HACI BAYRAM VELİ UNIVERSITY
**FACULTY OF TOURISM**

KARABAKH UNIVERSITY

ADMİU

# 6TH INTERNATIONAL TRAVEL AND TOURISM DYNAMICS

2025

# CULTURAL HERITAGE

**16-18 May 2025**
**Baku & Khankendi**
**AZERBAIJAN**

**ITTD25**
**HYBRID**

## IMPORTANT DATES

**DEADLINE FOR FULLTEXT OR ABSTRACT SUBMISSION**
**05 APRIL 2025**

**ANNOUNCEMENT OF ACCEPTED PAPERS**
**20 APRIL 2025**

**DEADLINE FOR SUBMISSION OF REGISTRATION AND COPYRIGHT FORMS**
**25 APRIL 2025**

**ANNOUNCEMENT OF THE CONGRESS PROGRAM**
**05 MAY 2025**

***ABSTRACTS & FULL TEXT PAPERS ACCEPTED***
***PRESENTATIONS WILL BE HELD BOTH IN-PERSON AND ONLINE***

hacibayram.edu.tr/ittd25

**6-cı Beynəlxalq Səyahət və Turizm Dinamikası Konfransı haqqında**

**MƏLUMAT**

2025-ci ilin 16-18 may tarixlərində Bakı və Xankəndi şəhərlərində Qarabağ Universitetinin İqtisadiyyat, Ankara Hacı Bayram Veli Universitetinin Turizm, Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin Kulturologiya, Azərbaycan Turizm və Menecment Universitetinin Turizm və qonaqpərvərlik fakültələrinin birgə təşkilatçılığı ilə 6-cı Beynəlxalq Səyahət və Turizm Dinamikası Konfransı keçiriləcəkdir.

Konfransın əsas mövzusu turizmin mərkəzində dayanan “Mədəni irs” olaraq müəyyən edilib. Mədəni irs keçmişdən bu günə bəşəriyyətin ümumi yaddaşını və kimliyini daşıyan dəyərlər toplusudur. Konfrans mədəni irsin qorunması, yenidən şərh edilməsi və davamlılıq çərçivəsində turizm vasitəsilə necə transformasiya olunduğunu müzakirə etmək məqsədi daşıyır.

Dünyanın müxtəlif ölkələrindən aidiyyəti mütəxəssislər, akademik heyət üzvləri, tədqiqatçılar, sektor nümayəndələri və tələbələr bu unikal platformada bir araya gələrək bilik mübadiləsi və əməkdaşlıq imkanlarını dəyərləndirəcəklər.

Türk, Azərbaycan və ingilis dillərində həm tezis, həm də tam mətnli məqalələr qəbul olunur. Müvafiq dəyərləndirilmələrdən keçərək konfransda qəbul olunan işlər tezislər kitabında dərc ediləcəkdir. Tam mətnli məqalələr isə “Detay Yayıncılık” tərəfindən nəşr ediləcək “Cultural Heritage” kitabında bölmə olaraq çap olunacaqdır.

Hibrid formatda keçiriləcək konfransda iştirak üçün qeydiyyat ödənişsizdir.

**Əsas mövzu: Mədəni irs və Türk mirasi**

**Alt mövzular:**

**Türk Dünyasında mədəni irs və turizm**

- Türk Dünyasında ortaq mədəni irs elementlərinin turizmdə rolu
- Türk Dünyası ölkələri arasında mədəni irs turizmi əməkdaşlığı
- Ortaq tarix və mədəniyyətin turizm vasitəsilə təbliği və qorunması
- Türk Dünyasında mədəni irs turizminin inkişafı strategiyaları
- Türk Dünyasında mədəni irsin davamlı turizmlə dəstəklənməsi

**Mədəni irsin qorunması və davamlı turizm**

- Mədəni irsin qorunmasında davamlı turizmin rolu
- UNESCO-nun Dünya İrs Siyahısı və turizmə təsirləri
- Mədəni irs sahələrində ziyarətçilərin idarə olunması strategiyaları

**Mədəni irsin rəqəmsallaşdırılması və virtual turizm**

• Mədəni irsin rəqəmsal arxivləşdirilməsi və virtual muzeylər
• 3D modelləşdirmə və artırılmış reallıq tətbiqləri
• Rəqəmsallaşmanın turizmdə yeni imkanlar yaratması

**Mədəni irs turizmi və iqtisadi təsirlər**

• Mədəni irs turizminin yerli iqtisadiyyata verdiyi töhfələr
• Turizm gəlirlərinin mədəni irsin qorunmasına yönləndirilməsi
• Mədəni irs turizminin davamlı inkişafa təsiri

**Yerli icmalar və mədəni irs turizmi**

• Mədəni irs turizmində yerli əhalinin iştirakı
• İcma əsaslı turizm və yerli iqtisadiyyatların gücləndirilməsi
• Mədəni irsin turizmə açılması və sosial dinamika

**Mədəni irs və təhsil: turizmin rolu**

• Mədəni irsin təhsil yolu ilə təbliği və turizmə inteqrasiyası
• Məktəblərdə mədəni irs haqqında məlumatlılığın artırılması
• Mədəni irs sahələri üçün turizm təhsili proqramları

**Mədəni irs və turizmdə etik yanaşmalar**

• Mədəni irsin turizm vasitəsilə kommersiyalaşdırılması və etik məsələlər
• Ziyarətçilərin sayı ilə mədəni irsin qorunması arasında tarazlıq
• Turizmdə mədəni irsin düzgün təmsil olunması

**Gələcək nəsillər üçün mədəni irs və turizm strategiyaları**

• Mədəni irsin gələcək nəsillərə ötürülməsində turizmin rolu
• İqlim dəyişikliyi və mədəni irsin qorunması
• Mədəni irs turizmi üçün innovativ strategiyalar və siyasətlər

**Rekreasiya təhsili və mədəni İrs**

• Mədəni irs sahələrində rekreasiya təhsili proqramları
• Gənclər üçün mədəni irsə yönəlmiş rekreasiya tədbirlərinin təşkili
• Mədəni irsin qorunmasında rekreasiya təhsilinin rolu

**Türk Dünyasında ortaq qastronomiya irsi**

• Türk Dünyasına xas ortaq mətbəx mədəniyyətlərinin turizmə töhfəsi
• Türk Dünyasında qastronomiya və mədəni irsin təbliği üçün əməkdaşlıqlar
• Ortaq yemək festivalları və qastronomiya turizminin inkişafı

**Turizmlə bağlı digər məsələlər də dəyərləndiriləcəkdir.**

| Vacib tarixlər | |
|---|---|
| Tezis/Məqalənin təqdim edilməsi üçün son tarix | 05 Aprel 2025 |
| Qəbul edilən tezis və məqalələrin elanı | 20 Aprel 2025 |
| Qeydiyyat və müəllif hüququ formalarının təqdim edilməsi üçün son tarix | 25 Aprel 2025 |
| Konfrans proqramının elanı | 05 May 2025 |
| Konfrans tarixi | 16-18 May 2025 |

Konfrans və qeydiyyat barədə ətraflı məlumatı aşağıdakı link vasitəsilə əldə edə bilərsiniz:

https://hacibayram.edu.tr/ittd25